Azərbaycan Tibb Universtetinin

İctimai Səhiyyə fakultəsinin

06.02.2019-ci il tarixli

Fakultə Elmi Şurasının iclasının

Q Ə R A R I

Protokol № 5

İCTİMAİ SƏHİYYƏ FAKÜLTƏSİNİN ELMİ ŞURASI QƏRARA ALIR:

I. 1. 2018/2019-cu tədris ilində qış imtahan sessiyasının nəticələrinin müzakirəsi və tədrisin keyfiyyətinin daha da yaxşılaşdırılması işində kollektivin vəzifələri barədə fakültə dekanı professor A.Ə.Ağayevin çıxışı qənaətbəxş hesab edilsin;

2. ATU-nun Ictimai sağlamlıq və səhiyyənin təşkili kafedrasının müdiri, prof. R.Çobanovun kafedranın illik fəaliyyəti barədə hesabatı qənaətbəxş hesab edilsin.

II. Kafedra müdirlərinə tapşırılsın ki:

1. Universitet Elmi Şurasında qəbul edilən ATU-nun Daxili İntizam Qaydaları kafedraların iclasında müzakirə edilsin, bu qaydalar ilə hər bir işçinin tanışlığı təmin edilsin və həmin iclasın protokolundan çıxarışın bir nüsxəsi 3 iş günü müddətində dekanlığa təqdim olunsun;

2. Fakültə Metodik Komissiyasının, kafedralarda tədris metodik sənədlərin ilkin yoxlamaları barədə məlumatı kafedralarda müzakirə edilsin və qeyd olunan çatmamazlıqlar qısa müddət ərzində aradan qaldırılsın;

3. Imtahanlar zamanı appelyasiya müraciətlərinin sayının minimuma endirilməsi məqsədilə imtahan testləri yenidən işlənərək VTM-nə təqdim edilsin, eləcə də sualların daha məntiqli və elmi əsaslı olması təmin edilsin;

5. Əmək intizamına və tədrisin keyfiyyətnə nəzarət gücləndirilsin;

6. Yaz sessiyasının başlanmasına qədər dərs cədvəlləri, açıq dərslərin cədvəlləri, müəllimlərin dərs yükü, məsləhət saatları barədə məlumat dekanlığa təqdim edilsin və dərs cədvəllərinə riayət olunmasına, eləcə də tədris-metodiki və eimi-tədqiqat işlərinə nəzarət gücləndirilsin;

III. Dekanlığa tapşırılsın ki, nəzərdə tutulan işlərin yerinə yetirilməsinə nəzarəti gücləndirsin.

| | |
|---|---|
| Sədr: | prof. A.Ə.Ağayev |
| Elmi katib: | t.ü.f.d. Y.H.Hacıyeva |